

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 MART 2022-ci il CÜMƏ AXŞAMI № 58 (7240) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ





*17 mart 2015-ci ildə Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlqoyma mərasimi keçirilmişdir.*

# TANAP qarşılıqlı faydalı əməkdaşlıq nümunəsidir

## *Bu qlobal layihə Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrutdur*

***17 mart 2015-ci il.*** *Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri - TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Georgi Marqvelaşvili mərasimdə iştirak ediblər. Əvvəlcə TANAP layihəsinə həsr olunmuş film nümayiş etdirilib. Filmdə qeyd olunub ki, TANAP Türkiyə və Azərbaycan qardaşlığının Anadoluya atılan imzasıdır. Azərbaycanın və Türkiyənin birgə səylərinin məhsulu olan bu layihə üzrə saziş 2012-ci ildə İstanbulda imzalanıb. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.*

Cənub Qaz Dəhlizinin əsas seqmenti olan Trans-Anadolu qaz boru kəməri 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilmişdir. Dəhlizin son seqmenti olan TAP boru kəməri layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək, ölkəmizin gəlirlərini artıraraq, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. TANAP eyni zamanda, tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən böyük diametrli təbii qaz boru xətti kimi daxil olmuşdur. Azərbaycan və Türkiyənin uzunmüddətli strateji enerji əməkdaşlığının ən mühüm bəhrələrindən olan TANAP layihəsi tamamlanmışdır. Ərdəhanın Posof qəsəbəsindən başlayaraq Türkiyə ərazisi boyunca 20 şəhərin bölgəsindən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru xətti 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədində Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya nəql etmək üçün hazır vəziyyətə gətirilmişdir.

Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP boru kəmərinin hüquqi bazası 2012-ci ildə yaradılmış, layihə üzrə yekun investisiya qərarı 2013-cü il dekabrın 17-də qəbul edilmişdir. 2015-ci ildə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra kəmərin inşaat işləri başlamışdır. TANAP-ın Türkiyə-Gürcüstan sərhədindən Əskişəhərə qədər olan ilk mərhələsi 2018-ci ilin iyununda tamamlanmışdır. Həmin il iyunun 12-də iki qardaş ölkənin dövlət başçılarının iştirakı ilə Türkiyədə TANAP-ın açılış mərasimi keçirilmişdir. Türkiyəyə kommersiya məqsədli ilk qazın nəqli 2018-ci il iyunun 30-da Əskişəhərdəki çıxış nöqtəsində başlamışdır. 2019-cu il iyunun sonunadək layihənin Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinə qədər olan ikinci mərhələsi də uğurla başa çatdırılmışdır.

Layihənin yekun investisiya qərarı verilləndə ümumi xərcləri 11,7 milyard dollar həcmində qiymətləndirilirdi.

**(davamı 2-ci səhifədə)**

# TANAP qarşılıqlı faydalı əməkdaşlıq nümunəsidir




## *Bu qlobal layihə Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrutdur*

**(əvvəli 1-ci səhifədə)**

Lakin icra prosesində satınalma qərarlarının əlverişli zamanda verilməsi və layihənin idarə olunmasında səmərənin maksimum artırılması nəticəsində layihə 7 milyard dollardan aşağı xərclə tamamlanmışdır. TANAP çərçivəsində indiyədək 1000-ə yaxın sosial və ətraf mühit layihəsi həyata keçirilmiş, kəmərin keyfiyyət, ətraf mühitin mühafizəsi, əməyin sağlamlığı və təhlükəsizliyi sahəsində beynəlxalq miqyasda nümunəvi göstəricilərə nail olunmuşdur.

30 noyabr 2019-cu il. Türkiyənin Ədirnə vilayətinin İpsala bölgəsində Trans-Anadolu təbii Qaz Boru Kəməri Layihəsinin Avropa ilə birləşəcək hissəsinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər rəsmilər iştirak ediblər. İlham Əliyev TANAP layihəsinin "ömrünün uzun olacağına və Türkiyə-Azərbaycan və digər qonşu xalqlara fayda verəcəyinə ümid etdiyini" bildirib: "Bu layihə ölkələr arasında körpülər quracaq, əməkdaşlıq, məşğulluq və uzunmüddətli müqavilələr gətirəcək". Rəcəb Tayyib Ərdoğan deyib ki, "TANAP ölkəmizin sülhməramlı baxışının konkret işarəsidir". Ərdoğan bu layihənin Türkiyə və Azərbaycan arasında "dərin dostluğun simvolu" olduğunu söyləyib. Cənab Ərdoğanın sözlərinə görə, TANAP Azərbaycandan Avropaya uzanan 3500 km-lik enerji koridorunun ən əhəmiyyətli hissəsidir. Türkiyə Prezidenti TANAP vasitəsilə 16 milyard kubmetr Azərbaycan qazının Türkiyə və Avropanın istifadəsinə verilməsinin "xəyaldan həqiqətə çevrildiyini" deyib. Dünyanın enerji xəritəsini zənginləşdirən, Xəzər regionu ilə Avropanı birləşdirən Cənub Qaz Dəhlizinin reallaşdırılması istiqamətində görülən işlər yekunlaşdırılıb. TANAP layihəsinin Azərbaycan, eyni zamanda qardaş Türkiyə də daxil olmaqla, Avropa dövlətləri üçün xüsusi iqtisadi və siyasi əhəmiyyətə malik olduğunu qeyd etməyə ehtiyac yoxdur. Azərbaycan Respublikası özünün karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq üçün neft və qaz boru kəmərləri marşrutlarının şaxələndirilməsinə, alternativ ixrac istiqamətlərinə üstünlük verir. İlk dəfə bu təşəbbüslə xalqımızın ümummilli lideri Heydər Əliyev çıxış etmişdir. Xatırladaq ki, "Əsrin müqaviləsi" imzalanan zaman ulu öndər Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün şimal və qərb istiqamətləri ilə yanaşı, əsas ixrac marşrutunun - Bakı-Tbilisi-Ceyhan boru kəmərinin də inşasının zəruriliyini bəyan etmişdi. Zaman bu uzaqgörən ideyanın həqiqiliyini sübut etmiş və Bakı-Tbilisi-Ceyhan layihəsi reallığa çevrilmişdir. Ulu öndərin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiyanı Azərbaycanda uğurla davam etdirən Prezident İlham Əliyev də ölkəmizin qaz ehtiyatlarının dünya bazarına ixracı üçün şaxələndirilmiş boru kəməri sisteminin yaradılmasına xüsusi önəm verir. Hazırda Azərbaycan təbii qazını dörd istiqamətdə ixrac etmək imkanına malikdir. Bununla belə, ölkəmizin zəngin qaz ehtiyatları daha geniş imkanlara malik ixrac boru kəməri marşrutunun yaradılmasını tələb edirdi. Təsadüfi deyil ki, uzun illər Azərbaycan qazının Avropaya çıxarılması üçün müxtəlif variantlar qızğın müzakirə obyekti olmuşdur. Nəhayət, bu sahədə uzun müddət davam edən müzakirələr öz müsbət həllini tapmış, Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrut dəqiqləşdirilmişdir. Bu, Trans-Anadolu qaz kəməri marşrutu idi.

TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Türkiyə və Azərbaycan qardaşlığının növbəti təzahürü olan, ölkələrimizin birgə layihəsi kimi xalqlarımızın rifahına xidmət edəcək Trans-Anadolu qaz kəməri ideyası 2011-ci ildə həyata vəsiqə almışdır. Belə ki, 2011-ci il oktyabrın 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanmışdır. 2012-ci il iyunun 26-da isə qardaş ölkənin İstanbul şəhərində "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" sazişə imza atılmışdır. 2012-ci il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənmişdir. Dövlətimizin başçısı İlham Əliyev isə Azərbaycan və Türkiyə hökumətləri arasında bağlanan sazişin təsdiq edilməsi haqqında qanunu imzalamışdır. Beləliklə, yaxın illərdə Azərbaycanı Avropa ölkələrinin qaz bazarları ilə birləşdirəcək Trans-Anadolu ixrac boru kəməri ilə bağlı hüquqi bazanın yaradılması təmin olunmuşdur.

Cənub Qaz Dəhlizinin əsas komponentlərindən sayılan TANAP layihəsi real fəaliyyət sahəsinə çevrilmiş, kəmərin istismarına faktiki olaraq start verilmişdir. Əskişəhər şəhərində kəmərin istismara verilməsi ilə bağlı təşkil edilən təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan Cənub Qaz Dəhlizi icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın".

TANAP layihəsi regionda qarşılıqlı əməkdaşlıq nümunəsidir. Bu, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin birgə səyi və gücü ilə reallaşdırılacaq daha bir enerji layihəsidir. Gələcəkdə Azərbaycan qazını Türkiyə vasitəsilə dünya bazarına çıxaracaq Trans-Anadolu boru kəməri hər iki ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olacaq. Bununla da, Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni mərhələ başlanacaq. Eyni zamanda, dünyada enerji təhlükəsizliyinin təmin olunmasında, Cənubi Qafqazın, o cümlədən Xəzər hövzəsində Azərbaycanın Türkiyə və Gürcüstan, Türkmənistan və digər ölkələrin əməkdaşlıq sahəsinin genişləndirilməsi, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsi, qaz bazarlarına daha çox maye qazın çıxarılması və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə töhfənin verilməsidir. TANAP layihəsi, həmçinin Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradacaq. Belə ki, gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulacağı təqdirdə Azərbaycan həm də qaz nəqlində tranzit ölkəyə çevrilmək imkanı əldə edəcəkdir. Nəticədə, Azərbaycan dünya arenasında iqtisadi və siyasi müstəqilliyini bir daha təsdiqləyəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Azərbaycan və Niderland XİN-ləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib

**Martın 15-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Niderland Krallığının Xarici İşlər Nazirliyi arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Niderland tərəfindən isə bu ölkənin Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə baş direktoru Thijs van der Plas rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı 2022-ci ilin aprel ayında Azərbaycan və Niderland arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinin qeyd olunacağı, bu müddət ərzində ölkələrimiz arasında münasibətlərin bütün sahələrində, o cümlədən siyasi, mədəni, humanitar sahələrdə inkişaf etdiyi bildirilib. Həmçinin iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti təhlil olunub və əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. İkitərəfli ticari-iqtisadi əlaqələr üçün geniş potensial imkanların mövcud olduğu qeyd edilib.

Tərəflər iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətini vurğulayıb və bu xüsusda, siyasi müstəvidə əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını ifadə ediblər.

X.Xələfov qarşı tərəfə 44 günlük Vətən müharibəsi və üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədə mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası və orada həyata keçirilən bərpa və yenidən qurulculuq işləri barədə ətraflı məlumat verib.

Daha sonra tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri, eyni zamanda, Ukraynadakı vəziyyət üzrə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində X.Xələfov Niderland Krallığı Senatının xarici məsələlər, müdafiə və inkişafa yardım üzrə daimi komitəsinin sədri Ernest Bastiaan von Apeldoorn ilə görüş keçirib və iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

**AZƏRTAC**